



# Ölkəmizi tanıyaq





## Bakı rayonlarının şagirdləri "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Naxçıvana gediblər

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində martın 16-da Bakı şəhərinin 12 rayonunun 40 məktəbindən 168 şagird Naxçıvan Muxtar Respublikasına yola salınıb.

AZƏRTAC xəbər verir ki, paytaxt məktəbliləri Heydər Əliyev Beynəlxalq Aeroportunda bayram əhval-ruhiyyəsi ilə qarşılandılar.

Şagirdlər üç gün ərzində Naxçıvanın tarixi və mədəniyyət abidələri, adət-ənənələri, müasir simasını əks etdirən yerləri ilə tanış olacaqlar.



Tur-aksiyanın əhəmiyyətindən danışan qrup rəhbəri Məhəmməd Əsədov bildirib ki, bu layihə gənclərin Vətənimizi daha yaxından öyrənməsində, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasında və onların dünyagörüşünün artmasında mühüm rol oynayacaq.

Tur-aksiyanın iştirakçıları hər bir rayonun adı yazılan lövhəciklərin yanında toplaşaraq əyləncəli proqrama tamaşa etdilər. Foyedə "Ölkəmizi tanıyaq", "Novruz bayramınız mübarək", "Yaxşı yol" şüarları yazılmış banerlər quraşdırılmışdı. Budəfəki səfər Novruz bayramı ərəfəsinə təsadüf etdiyindən məktəbliləri yola salmağa bayram personajları da gəlmişdilər. Onların şən zarafatları, musiqi kollektivlərinin ifaları iştirakçılarda xoş ovqat yaratdı.

Məktəbli Nigar Əliyeva Azərbaycanın bir çox bölgəsində olduğunu, lakin Naxçıvana ilk dəfə səfər etdiyini bildirib. O deyib: "Bu layihə həqiqətən də biz gənclər üçün çox mühüm əhəmiyyət kəsb edir. Buna görə Prezidentimiz İlham Əliyevə təşəkkür edirik. Naxçıvanın tarixi-mədəni abidələri ilə tanış olub fərqli gözəlliklər görəcəyim üçün çox sevincliyəm".

Şagirdlər doğma Azərbaycanımızın ayrı-ayrı guşələrini gənc nəslə daha yaxından tanıtmaq məqsədilə reallaşan bu tur-aksiyanın təşkilinə və yaradılan şəraitə görə dövlət başçısına bir daha minnətdarlıq etdilər.

Sonra onlar bayram əhval-ruhiyyəsi ilə Naxçıvana yola salındılar.

## Tur-aksiyanın Naxçıvandan olan iştirakçıları Bakıya yola salınıb

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara martın 16-da Naxçıvan şəhərində də start verilib. Naxçıvan şəhərində keçirilən sınaq imtahanlarında 450-700 arasında bal toplayan 150 IX-XI sinif şagirdi 20 bələdçi-müəllimin müşayiəti ilə tur-aksiya çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola düşüb. Məktəblilər Bakı şəhərində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edəcək, Heydər Əliyev Mərkəzi, Qız qalası, Şirvanşahlar sarayı, Azərbaycan Milli Tarix Muzeyi, İncəsənət Muzeyi, Xalça Muzeyi, "Atəşgah" məbədi və digər əhəmiyyətli mədəni-tarixi yerlərlə tanış olacaqlar.



Bakı şəhərinə yola düşən tur-aksiya iştirakçısı, Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin 11 sinif şagirdi Səid Əliyev bildirdi ki, bu cür tur-aksiyaların keçirilməsi ümumilikdə ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin öyrənilməsinə geniş şərait yaradır. İlk dəfə Bakı şəhərinə gedəcəyini deyən Səid sürətlə inkişaf edən Azərbaycanın daim gözəlləşən paytaxtını görməyi çox arzuladığını qeyd etdi.

Söhbətə qoşulan həmin məktəbin 11-ci sinif şagirdi Ayla Əsədli də məktəblilərə bu şəraiti yaradan dövlət başçısına dərin minnətdarlığını bildirərək dedi: "Ölkəmizi tanıyaq" tur-aksiyası biz məktəblilərin dünyagörüşünün zənginləşməsinə böyük təsir göstərəcək. Tur-aksiya ərzində bugünədək görmədiyimiz tarixi yerlərlə tanış olmaq imkanı qazanacaq, paytaxtımız Bakı şəhəri ilə yaxından tanış olacaq, yeni məlumatlar əldə edəcəyik".

Naxçıvan şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin 11-ci sinif şagirdi Ramil Babayev də səfər zamanı unudulmaz anlar yaşayacağına, yeni məlumatlar öyrənərək biliyini, dünyagörüşünü daha da artıracağına əmindir. Ramil hesab edir ki, ölkəmizin tarixini və adət-ənənələrini dərindən öyrənmək məqsədilə respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan məktəblilərin digər bölgələrə səyahətlərinin təşkil edilməsinin böyük əhəmiyyəti var: "Bu səyahətlər zamanı biz şagirdlər ölkəmizi daha yaxından tanımaq imkanı qazanır, doğma Vətənimizin tarixini dərindən öyrənir, görmədiyimiz yerlərlə tanış oluruq".

Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Xeyrənsə Fərzəliyeva isə vurğulayır ki, Bakıya səfəri zamanı paytaxtımızın inkişafının canlı şahidi olacaq: "Prezidentimizin təşəbbüsü ilə reallaşan bu layihə sayəsində ölkəmizi daha yaxından tanıyacağıq. Bizə bu şəraiti yaratdığına görə dövlət başçısına minnətdarlığımı bildirirəm".

## Tur-aksiya iştirakçıları arasında Ağdam, Xocalı, Xocavənd, Kəlbəcər və Laçın məktəbliləri də var

Prezident İlham Əliyevin tapşırığı ilə təşkil olunan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının Ağdam, Xocalı, Xocavənd, Kəlbəcər və Laçın rayonundan olan iştirakçıları martın 16-da Ağdaş rayonundan Lənkəran-Lerik-Astara marşrutu üzrə ekskursiyaya yola düşüblər.

AZƏRTAC xəbər verir ki, tur-aksiyanın iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Ağdaş şəhərindəki abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad ediblər.



Heydər Əliyev Mərkəzində təşkil olunan yolasalma mərasimində Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Novruzova çıxış edərək ölkəmizdə gənclərin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən, onlara göstərilən dövlət qayğısından danışıb, belə layihələrin yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Mərasimdə bildirilib ki, məktəblilər dörd gün ərzində Lənkəran, Lerik və Masallının tarixi abidələri, adət-ənənələri, sosial-iqtisadi inkişafı, coğrafiyası və turizm məkanları ilə tanış olacaqlar.

Çıxışlardan sonra Ağdaş rayonuna toplaşan məktəblilər avtobusla Lənkərana yola salınıblar.

## Bu, gənclərə dövlət qayğısının təzahürüdür

Martın 16-da Ağcabədi şəhərinin mərkəzi meydanında rayon rəhbərliyinin, təhsil işçilərinin və valideynlərin iştirakı ilə rayonun məktəblilərindən ibarət qrupun İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə yola salınması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının müavini Naibə Mustafayeva və təhsil şöbəsinin müdiri Mehdi Əhmədov çıxış edərək dövlət başçısının tapşırığına əsasən təşkil olunan aksiyanın əhəmiyyətindən danışıb, məktəblilərə xoş və mənalı səfər arzulayıblar. Bildirilib ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin Vətənə, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə hörmət və məhəbbət ruhunda tərbiyə olunmasıdır. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar da məhz bu amala xidmət edir.



Qrupun rəhbəri, rayonun 8 nömrəli tam orta məktəbinin müəllimi Xuraman Quliyeva müsahibəsində deyib: "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası məktəblilərin dünyagörüşünün artmasında, onların Vətənimizi daha yaxından tanımasında böyük əhəmiyyət kəsb edir. Məktəblilər İsmayıllı rayonu, Lahıc qəsəbəsi, Qəbələ şəhərində "Qəbələnd" istirahət mərkəzi, "Beltmann" piano zavodu, "Tufandağ" Xizəkçilik Kompleksi, Nohur göl, Nic kəndi, Şəkidəki tarixi abidələrlə, eləcə də bölgələrdə həyata keçirilən sosial-iqtisadi inkişafla tanış olacaqlar. İnanıram ki, onlar bu səfərdən ən xoş və unudulmaz təəssüratlarla dönəcəklər. Bu tur-aksiya gəncliyin inkişafına göstərilən dövlət qayğısının əyani təzahürüdür".

Ağcabədi şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Ayxan Əliyev isə fikirlərini belə ifadə edib: "Həmişə Vətənimi gəzməyi, rayonlarımızla daha yaxından tanış olmağı arzulayırdım. Bu arzuma çatdığım üçün çox sevinirəm. Tezliklə şagird dostlarımla birgə İsmayıllı, Qəbələ və Şəki rayonlarının füsunkar təbiəti, görməli yerləri ilə tanış olacağıq. Bu səfər bizə çox şey verəcək. Buna görə tur-aksiyanın təşkilatçılarına minnətdarlıq edirəm".

Tur-aksiya iştirakçıları ulu öndər Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət etdikdən sonra İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə yola düşüblər.

## Mingəçevir məktəbliləri maarifləndirici tur-aksiya çərçivəsində İsmayıllı ilə tanış olacaqlar

AZƏRTAC xəbər verir ki, maarifləndirici tur-aksiyanın Mingəçevir şəhərindən olan iştirakçıları martın 16-da İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə ekskursiyaya yola düşüblər.

Tur-aksiyanın iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərindəki abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Mingəçevirin mərkəzində təşkil olunan yolasalma mərasimində şəhər icra hakimiyyəti başçısının müavini Hikmət Kərimov çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkil olunan bu aksiya yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinin yüksəlməsində, tədrisdə əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsində mühüm rol oynayır.



Mərasimdə çıxış edən təhsil işçiləri və valideynlər gəncliyin inkişafına göstərilən dövlət qayğısından minnətdarlıqla söz açıblar. Qeyd edilib ki, məktəblilər 4 gün ərzində İsmayıllı, Qəbələ və Şəkinin tarixi abidələri, adət-ənənələri, sosial-iqtisadi inkişafı, coğrafiyası və turizm məkanları ilə tanış olacaqlar. Müəllimlər və valideynlər "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində respublikamızda təşkil olunan maarifləndirici tur-aksiyanın əhəmiyyətindən danışaraq məktəblilərə uğurlu yol, mənalı istirahət arzulayıblar.

Ekskursiya qrupunun rəhbəri Firəngiz Həsənova deyib: "Əminəm ki, maarifləndirici tur-aksiya iştirakçılarının qədim tarixə malik Qəbələ, İsmayıllı və Şəkiyə səfərləri son dərəcə maraqlı və yaddaqalan olacaq. Qrupun üzvlərində yaranan xoş təəssüratlar uzun zaman unudulmayacaq. Biz gəzinti zamanı istirahət etməklə yanaşı, həm də rayonlarımızın gündən-günə inkişaf etməsinin, gözəlləşməsinin şahidi olacağıq. Həmçinin aksiyada iştirak edən şagirdlərə vətənpərvərlik hissləri aşılanır, onlar arasında Azərbaycanın bölgələri barədə daha ətraflı maarifləndirmə işləri görülür, dünyagörüşünün artırılması istiqamətində söhbətlər aparılır".

Mingəçevir Riyaziyyat-Təbiət və Humanitar Elmlər Təmayüllü Liseyin 11-ci sinif şagirdi Ülvi Aşurov tur-aksiyanın təşkilindən razılığını ifadə edərək göstərilən diqqət və qayğıya görə şagirdlər adından dövlət başçısına minnətdarlığını bildirib. Ülvi Aşurov deyib: "Bu maarifləndirici tur-aksiya zamanı hər bir şagird ölkəmizin görməli yerlərini tanımaq, tarixi, adət-ənənələri, maddi-mədəniyyəti ilə yaxından tanış olmaq imkanı əldə edəcək. Biz turizm obyektlərini və tarixi abidələri, ölkəmizin bölgələrində gedən sürətli sosial-iqtisadi inkişafı öz gözlərimizlə görəcəyik. Eyni zamanda, bu səyahət bizdə yüksək əhvali-ruhiyyə yaradacaq. Bu da təhsildə yaxşı nailiyyət əldə etməyimizə bir stimul olacaq".

Çıxışlardan sonra 40 nəfər mingəçevirli şagird avtobusla İsmayıllı rayonuna yola salınıb.

## Zərdab məktəbliləri Lənkərana səfərdən razı qalacaqlar

Prezident İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, müstəqillik illərində qazanılan nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə IX-XI sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının növbəti mərhələsinə start verilib.

AZƏRTAC xəbər verir ki, tur-aksiya çərçivəsində martın 16-da Zərdab rayonundan 40 məktəbli Lənkərana yola salınıb.

Bu münasibətlə keçirilən mərasimdə çıxış edənlər bildiriblər ki, dörd gün davam edəcək səfər zamanı şagirdlərin Lənkəran, eləcə də Lerik və Astara rayonlarının tarixi, müstəqillik illərindən sonra qazanılan uğurlar, bugünkü sosial-iqtisadi inkişafı barədə zəngin bilgilər alacaqlar.



Zərdab şəhər 1 saylı məktəb-liseyin XI sinif şagirdi Samirə Quliyeva deyib: "Cənub bölgəsinə səfərim məni çox sevindirir. Şəxsən mən cənub zonasında olmamışam. Əlbəttə, televiziyadan, eləcə də mətbuatdan Lənkəran, Lerik və Astara rayonları barədə müəyyən qədər məlumatım var. Lakin gedib gəzmək, gözlə görmək bizim üçün çox maraqlıdır. Mən və yoldaşlarım bizə bu imkanı yaratdığına görə "Ölkəmizi tanıyaq" tur-aksiyasının təşəbbüsçüsü olan Prezidentimizə minnətdarıq".

Mərasimdən sonra aksiya iştirakçıları avtobusla Lənkərana yollanıblar.

## Saatlı məktəblilərinin səfəri qərb bölgəsinədir

Martın 16-da "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının Saatlı rayonundan olan iştirakçıları - IX və XI sinif şagirdləri, onları müşayiət edən müəllimlər Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə qərb bölgəsinə yola düşüblər.



AZƏRTAC xəbər verir ki, tur-aksiya iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar. Sonra şagirdlər Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən foto və sənədlərlə tanış olublar.

Qrupun rəhbəri, rayon icra hakimiyyətinin işçisi Elşən Əzizov müsahibəsində deyib: "Maarifləndirici tur-aksiya təkcə regionlarla tanışlıq məqsədi daşımır. Səfər zamanı şagird və müəllimlər müxtəlif maraqlı tədbirlərdə iştirak etmək imkanı da əldə edəcəklər. Məktəblilərə bu imkanı yaradan Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk".

Tur-aksiyanın iştirakçıları - Əlisoltanlı kənd tam orta məktəbinin müəllimi Seymur İslamov, şəhər 1 saylı tam orta məktəbin X sinif şagirdi Pakizə Kazımova və başqaları bu aksiyanın təşkilindən razılıqlarını ifadə ediblər.

Valideyn Əziz Həsənov övladının tur-aksiyada iştirakından duyduğu məmnuniyyəti dilə gətirərək deyib: "Dövlət başçısı gələcəyimiz olan uşaqlara xüsusi qayğı göstərir. Hər yerdə yeni məktəblər, uşaq bağçaları, idman kompleksləri tikilib istifadəyə verilir. Bu tur-aksiya həmin qayğının daha bir təzahürüdür. Övladımın da bu aksiyada iştirak etməsindən çox məmnunam".

Sonra 40 məktəbli xüsusi avtobusla Gəncəyə yola salınıb.

## Şagirdlər şimal bölgələrinə yola düşüblər

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə "Ölkəmizi tanıyaq" adı ilə keçirilən maarifləndirici tur-aksiyaya Qubadlı, Şuşa, Cəbrayıl, Zəngilan və Füzuli rayonlarının məktəbliləri də qoşulub. Martın 16-da bu rayonların ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri Azərbaycanın şimal bölgələrinə yola düşüblər.



AZƏRTAC xəbər verir ki, bu münasibətlə Sumqayıtda təşkil olunan mərasimdə Qubadlı, Şuşa, Cəbrayıl, Zəngilan və Füzuli rayonlarının rəhbərliyi, təhsil işçiləri və valideynlər iştirak ediblər.

Tur-aksiya iştirakçıları Fatimə Rəhimova, Selcan Qasımzadə, Ramin Atayev, Rövşən Alxanov və Nərmin Quliyeva müsahibələrində bildiriblər ki, Quba, Qusar və Xaçmazın tarixi məkanlarına, muzeylərinə ekskursiyanı səbirsizliklə gözləyirlər. Vurğulanıb ki, bu səyahət onların ölkəmizin şimal bölgəsi haqqında biliklərini zənginləşdirəcək, yeni dostlar qazandıracaq.

Mərasimin sonunda məktəblilər xüsusi avtobusa əyləşərək şimal bölgəsinə yollanıblar.

## Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır

Martın 16-da səhər saatlarında Neftçala şəhərindəki Mədəniyyət Mərkəzinin qarşısında böyük izdiham vardı. Rayonun rəhbər işçiləri, müəllimlər, valideynlər və ictimaiyyətin nümayəndələri "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş maarifləndirici tur-aksiyanın Neftçaladan olan iştirakçılarını Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə yola salmaq üçün toplaşmışdılar.



AZƏRTAC xəbər verir ki, tur-aksiyanın iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Qrupun rəhbəri, şəhər 1 saylı tam orta məktəbin direktoru Ülviyyə Abdullayeva müsahibəsində səfər proqramı barədə məlumat verərək deyib: "Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Neftçalanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri dörd gün ərzində Gəncə şəhərinin, Göygöl və Şəmkir rayonlarının tarixi abidələri, sosial-iqtisadi inkişafı, görməli yerləri ilə yaxından tanış olacaqlar. Azərbaycanın regionları ilə tanışlıq məktəblilərdə vətənpərvərlik hisslərinin formalaşmasında, onların dünyagörüşünün artırılmasında əvəzsiz rol oynayır. Şagirdlərimizə bu imkanı yaradan dövlət başçısına minnətdarıq".

Tur-aksiyanın iştirakçıları, şəhər 1 nömrəli orta məktəbin XI sinif şagirdi İlknur Mahmudlu və Humanitar təmayüllü "Muğan" liseyinin IX sinif şagirdi Gülcahan Manafova ekskursiyadan zəngin təəssüratla qayıdacaqlarına əmin olduqlarını bildiriblər.

Daha sonra şagirdlər xüsusi avtobusla Gəncə-Şəmkir-Göygöl marşrutu istiqamətində yola çıxıblar.

Xatırladaq ki, builki tur-aksiyada Neftçaladan 40 məktəbli iştirak edir.